Azərbaycan.- 2021.- 21 aprel. S. 10.

# Ağstafada Vətən müharibəsi şəhidinin doğum günü qeyd edilib



Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də Ağstafanın Qırılı kəndində doğulub boya-başa çatmış Əliheydər Hüseynlidir.

1994-cü il aprelin 14-də dünyaya göz açan Əliheydər ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda həyata keçirilən döyüş əməliyyatlarına könüllü olaraq qatılmışdı. O, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərmişdir. Lakin noyabrın 9-da Xocavənd ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək şəhid olmuşdur. “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunan şəhid Əliheydər Hüseynli doğma Qırılı kəndində torpağa tapşırılmışdır.

Şəhidin anım günündə ailə üzvləri ilə yanaşı, yaxınları, eləcə də rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Şəhidin məzarı önündə keçirilən mərasimdə çıxış edənlər onun vətənpərvərliyindən söhbət açmış və belə bir oğul böyütdükləri üçün valideynlərinə minnətdarlıq etmişlər. Qeyd edilmişdir ki, Əliheydər Hüseynli alı təhsilli mühəndis idi. O, 2015-ci ildə Azərbaycan Texnologiya Universitetinin İnformasiya texnologiyaları və sistemləri fakültəsini bitirmişdi.

Sonra mərasim iştirakçıları şəhidin məzarı üstünə tər qərənfillər düzmüşlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***